*Bakı Metropoliteni - 50*

# Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir

**"Vətəndaşlarımız, ümumiyyətlə, xalqımız bilməlidir ki, bizim millətimizin əlində nə kimi böyük və nadir bir sərvət var. Bu sərvət müstəqil Azərbaycan dövlətinə yaxın keçmişimizdən miras qalıbdır. Ancaq eyni zamanda, bu sərvət Azərbaycan xalqının zəhmətkeş insanlarının böyük əməyi, əzmi nəticəsində yaranıbdır və belə bir möcüzəli şəkil alıbdır. Ona görə Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətlərindən biridir".**

***Heydər ƏLİYEV,***
***ümummilli lider.***



**Qürur hissi ilə qeyd edilməlidir ki, Bakı şəhərinin ictimai nəqliyyat sahəsində ekoloji cəhətdən təmiz nəqliyyat növü sayılan Bakı Metropoliteni şəbəkəsinin inkişafı məhz ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərə təsadüf edir. Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına ilk dəfə rəhbərlik etdiyi dövrə qədər Bakı Metropolitenində cəmi 6 stansiya və 8,8 kilometr metro xətti var idi. 1969-cu ildən sonra isə metropolitenin 14 stansiyası və 21,1 kilometr metro xətti inşa edilərək istismara verilmişdir. Azərbaycanın bu gün nəhəng layihələrin gerçəkləşdiyi məkana çevrilməsi dövlətimizin düşünülmüş strategiyası nəticəsində mümkün olmuşdur. Sözsüz ki, ölkə iqtisadiyyatının inkişafında nəqliyyat sektorunun xüsusi çəkisi var. Nəqliyyat vasitələri içərisində isə metro məsafə imkanlarına, sürətinə və rahatlığına görə ən çox istifadə olunan ictimai nəqliyyat vasitəsi kimi seçilir.**

Bakı Metropoliteni fəaliyyətə başlamasının 50-ci yubiley ildönümünü qeyd edir. Bakıda metro tikintisinin böyük tarixi vardır. Bakı Metropoliteni ilk dəfə 1967-ci il noyabrın 6-da Yaxın Şərqin ilk metropoliteni kimi öz qapılarını şəhər sakinlərinin üzünə açdı. İlk olaraq "Bakı Soveti", "Sahil", "28 May", "Gənclik" və "Nəriman Nərimanov" stansiyaları, daha sonra isə "Xətai" stansiyası sərnişinlərin istifadəsinə verildi. Ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi ilə metro tikintisində daha böyük canlanma başlandı. Heydər Əliyevin respublikanın rəhbəri kimi açılışında iştirak etdiyi ilk stansiya "Ulduz" oldu. 1970-ci il aprelin 17-də stansiyanın istifadəyə verilməsi mərasimində Heydər Əliyev inşaatçıların işinə böyük qiymət vermiş, onlara minnətdarlığını bildirmişdir. Bundan sonra tikinti sahəsində işlər görünməmiş vüsət aldı. Bakının yeraltı yolları o vaxt Montin qəsəbəsi (Nərimanov rayonu ərazisi) adlanan ərazidən 8-ci kilometr qəsəbəsinə doğru uzadılırdı. 1972-ci il noyabrın 6-da Bakı Metropoliteni özünün 5 yaşını qeyd etdiyi gün metro inşaatçıları bakılılara daha 3 stansiya hədiyyə etdilər. "Məşədi Əzizbəyov" ("Koroğlu"), "Avrora" ("Qara Qarayev"), "Neftçilər" stansiyalarının açılışı olur. Bundan sonra ulu öndərin qayğı və diqqəti sayəsində Bakı Metropoliteni stansiyalarının sayı artmaqda davam edir. 1976-cı ildə "Nizami", 1979-cu ildə "Bakmil" stansiyaları onun xeyir-duası ilə işə başladı. 1976-cı ildə ikinci növbənin "28 May-Nizami" mənzilində işlər davam etdirilirdi. Uzunluğu 2.26 km olan bu xəttin "Nizami" stansiyası qapılarını sərnişinlərin üzünə dekabrın 31-də açdı. Bu xəttin davamı olan 6,5 km-lik "Nizami-Memar Əcəmi" xəttinin "Elmlər Akademiyası", "İnşaatçılar", "XI qızıl ordu meydanı" (indiki "20 Yanvar") və "Memar Əcəmi" stansiyaları 1985-ci il dekabrın 30-dan bakılıların istifadəsinə verildi. Bundan sonra tikintidə üçüncü növbənin Şərq sahəsində işlərin sürəti artırıldı və 1989-cu il aprelin 28-də "Xalqlar dostluğu" və "Əhmədli" stansiyaları açılmaqla metropoliten xətlərinin uzunluğu daha 3,3 km artdı. 1993-cü ildə "28 May" stansiyasının yenidən qurulması işlərinin bir qolu olan "Cəfər Cabbarlı" keçid stansiyası istismara verildi. Eyni zamanda, tikintisi yarımçıq qalmış "Həzi Aslanov" stansiyasında inşaat işlərinin başa çatdırılması üçün 2001-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü və nüfuzu sayəsində Avropa İttifaqı tərəfindən ölkəmizə təmənnasız qrant vəsaiti ayrılmış və bu stansiya 2002-ci ilin dekabrın 10-da tikilib başa çatdırılaraq istismara verilmişdir. "Həzi Aslanov" stansiyasının yeraltı nəqliyyat konveyerinə qoşulması ilə Bakı Metropoliteni xətlərinin uzunluğu 31,5 km-ə çatdı ki, bunun da 22,3 kilometri ulu öndərin rəhbərliyi, diqqət və qayğısı sayəsində tikilmişdir. Bu dövrdə Bakı Metropoliteninin tikintisi ilə bağlı problemlərin həlli üçün gördüyü tədbirləri ulu öndər belə xatırlayırdı: **"Metronun tunellərində istifadə olunan çuqun tübinqlərin və başqa ləvazimatın istehsalını istənilən səviyyədə təşkil etmək mümkün deyildi. Çünki zavodlar buna hazır deyildi. Mənim xatirimdədir, Moskvada Nəqliyyat Tikintisi Nazirliyinin kollegiyalarında biz bu məsələni bir neçə dəfə müzakirə etmişdik. Göndərilən tübinqlər Bakı üçün kifayət etmirdi. Mən orada öz imkanlarımdan istifadə edərək, təbiidir ki, Bakının bütün tələbatını artıqlaması ilə ödəyirdim. Çünki Bakıda işləməsəydim də, mənim qəlbim, ürəyim burada idi. Ona görə də mənim orada işləməyim və bilavasitə bu sahə ilə məşğul olmağım o illərdə, ondan sonrakı illərdə metro inşaatının çox sürətlə keçməsinə çox kömək etdi, çox böyük amil oldu".**




Bakı Metropoliteninin tarixində ulu öndər Heydər Əliyevin öz möhtəşəm yeri, onun əksər stansiyalarının memarlıq üslubunda isə əbədi və solmaz izləri vardır. Bu yeraltı səltənəti xalqımızın maddi-mənəvi sərvətlərindən biri kimi dəyərləndirən müdrik və uzaqgörən rəhbərimiz respublika rəhbəri seçildiyi vaxtdan tikintisi aparılan bütün stansiyaların məhz milli memarlıq üslubunda layihələndirilməsinə və inşa olunmasına şəxsən rəhbərlik etmişdir. Ulu öndər Heydər Əliyev Bakı Metropoliteni stansiyalarının memarlıq tərtibatının həllinə də çox böyük önəm verirdi: **"Metronun hər bir stansiyası funksional vəzifəsini yerinə yetirməklə yanaşı, öz tərtibatı baxımından Azərbaycanın milli memarlıq sənətinin gözəl bir nümunəsidir. Azərbaycan xalqının tarixinə, onun sənət incilərinə müraciət edən memarlar müxtəlif tikinti materiallarından, müasir texnologiyalardan, habelə şəbəkə, miniatür kimi milli ornament elementlərindən istifadə edərək, yaraşıqlı zalların yaradılmasına nail olmuşlar".**

Dövlət müstəqilliyimizin ilk illərində metronun yaşadığı böhrandan yaxa qurtarmasında Heydər Əliyevin rolu xüsusilə qeyd olunmalıdır. Metronun maddi-texniki bazasının möhkəmləndirilməsi, vaqon parkının yeniləşməsi ulu öndərin Moskvada işlədiyi illərdə qazandığı nüfuz və hörmətinin nəticəsi idi. Moskva vilayətinin Mıtişşi "Metrovaqonmaş" Səhmdar Cəmiyyətinin rəhbərliyi Bakı Metropoliteninə o vaxt qüvvədə olan qiymətlərdən aşağı qiymətə vaqon satmağa razı oldu. Bundan əlavə, Moskva metropolitençiləri metromuzu çətin vəziyyətdən çıxarmaq üçün bakılı həmkarlarına haqqı ödənilmədən saysız-hesabsız ehtiyat hissələri göndərdilər. Heydər Əliyev bu nüfuzu Moskvada işlədiyi illərdə ölkə qarşısında göstərdiyi misilsiz xidmətləri ilə qazanmışdı. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində olarkən qəbul etdiyi qərarlar SSRİ-nin, sonrakı illərdə Rusiya şəhərlərində metro tikintisinə, dəmir yolları şəbəkəsinin genişləndirilməsinə, vaqonqayırma sənayesinin inkişafına böyük təkan vermişdi. 2002-ci ildə Heydər Əliyev sarayında keçirilən Bakı Metropoliteninin 35 illik yubiley mərasimində çıxış edən "Metrovaqonmaş" SC-nin direktoru Yuri Soldatov qeyd etmişdir ki, Heydər Əliyev təkcə Bakı Metropoliteninə deyil, bizim ölkəmizdə də metro tikintisinə, vaqonqayırma sahəsinin inkişafına misilsiz töhfə vermişdir. Mıtişşi zavodunun yenidən qurulmasında, istehsalat sahələrinin genişlənməsində Heydər Əliyevin əməyini qeyd edən Y.Soldatov dediklərinə sübut üçün mərasim iştirakçılarına SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin yanında 1983-cü il dekabrın 23-də keçirilmiş iclasın protokolunu təqdim etmişdir. 16 bənddən ibarət sənədin 15 bəndi vaqon istehsalının artırılması, onların texniki səviyyəsinin yüksəldilməsi, bu sahədə çalışan elmi-tədqiqat institutlarında yeni vaqon layihələrinin hazırlanması barədə göstərişlər idi.

Tikinti-quraşdırma işləri dayandırılmış Bakı Metropoliteni 2000-ci illərin ortalarından başlayaraq, ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ikinci həyatına qədəm qoymuşdur. Tikintisi yarımçıq qalmış obyektlərdə işlər məhz cənab İlham Əliyevin şəxsi təşəbbüsü və göstərişi əsasında uzun fasilədən sonra bərpa olunmuş, yeni metro stansiyalarının tikintisinə, mövcud stansiyalarda yenidənqurma işlərinə, tunelqazan müasir texnikaların alınması və ölkəmizə gətirilməsinə start verilmişdir.

Hazırda metro şəhər nəqliyyatının 30 faizini təşkil edir. Bakı metrosunda gediş haqqı həm digər nəqliyyat vasitələrindən, eyni zamanda, bütün MDB məkanında olan ölkələrdən ucuzdur. Avropa şəhərləri ilə fərq bəlkə 10-15 dəfə səviyyəsindədir. Metro haqlarının aşağı səviyyədə saxlanması ilə dövlətimiz bir növ sosial məsələlərin həllinə də öz töhfəsini vermiş olur. Bu gün Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərir. Ölkə qarşısında duran məsələlər hələ çoxdur və elə sahələr var ki, mütləq oraya investisiyalar qoyulmalıdır və qoyulur. Danılmaz bir faktdır ki, metronun inkişafı həm insanlara rahatlıq verir, həm də ki, şəhər nəqliyyatının tənzimlənməsində mühüm rol oynayır.

Artıq paytaxtımızda metro tikintisinin geniş vüsət alması dövlətimizin bu sahəyə xüsusi önəm verməsinin əyani təzahürüdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində demişdir: **"Metro tikintisi sürətlə gedir, daha da sürətlə getməlidir. Çünki biz metronun uzunmüddətli İnkişaf Planını qəbul etdik və qarşıya vəzifə qoyuldu ki, 2030-cu ilə qədər Bakıda metro stansiyalarının sayı 70-ə çatsın... Yəni 2030-cu ilə qədər təqribən 50-yə yaxın yeni stansiyanın tikintisini təmin etmək üçün orta hesabla ildə bir neçə stansiya təhvil verilməlidir".**

Müstəqillik dövründə ölkə iqtisadiyyatının inkişafında dönüş ili olan 2006-cı ildən metronun yeni xətlərinin tikintisində də müsbət dəyişikliklər yarandı. Təkcə onu qeyd etmək kifayətdir ki, 2006-cı ildən başlayaraq, yeni metro stansiyalarının tikintisinə dövlət investisiyalarının ayrılmasına başlanılmışdır. Respublikamızın müstəqillik dövründə tikilən "Nəsimi" stansiyası artıq 2008-ci ildə şəhər sakinlərinin xidmətinə verilmişdir. Bakı Metropoliteninin üçüncü növbəsinin şimal sahəsinə daxil olan bu stansiya ən çətin geoloji və hidrogeoloji şəraitdə və ən tez tikilən stansiyadır, cəmi 18 aya inşa edilmişdir. Bir il sonra 2009-cu il dekabrın 30-da "Azadlıq prospekti" stansiyası və "28 May" stansiyasının ikinci çıxışı bakılılara yeni il hədiyyəsi oldu. 2011-ci il iyunun 29-da Bakının 7-ci mikrorayonunda növbəti, sayca 23-cü olan "Dərnəgül" stansiyası sərnişindaşıma prosesinə qoşuldu. Bir məsələni də xüsusi qeyd etmək istəyirəm ki, hər bir stansiyanın açılışında Prezident cənab İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva şəxsən iştirak etmişdir. İstər cənab İlham Əliyevin, istərsə də Mehriban xanım Əliyevanın stansiyaların açılışını bildirən qırmızı lenti kəsdikdən sonra inşaatçılarla səmimi söhbəti mənim həyatımın ən unudulmaz anlarındandır. Az da olsa xalqıma, ölkəmə layiqincə xidmətimdən, verdiyim töhfədən qürur duyuram. Buna görə özümü çox xoşbəxt sanıram.

Kütləvi sərnişin daşınmasında şəhər əhalisi üçün böyük əhəmiyyətini, metropolitendə tikinti və sərnişindaşıma kimi əsas sahələri vahid bir təsərrüfat kompleksində birləşdirməyin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 fevral 2014-cü il tarixli Sərəncamına əsasən Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə



səhmləri dövlətə məxsus "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Metropolitenin müasir tələblər çərçivəsində yenidən qurulması, beynəlxalq standartlara uyğunlaşdırılması, sərnişinlərin sərbəst və təhlükəsiz hərəkətinin təmin edilməsi, sərnişindaşıma xidmətinin keyfiyyətinin yüksəldilməsi "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin qarşısında qoyulan əsas vəzifələrdən oldu.

2015-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə "Elmlər Akademiyası" stansiyasının ikinci çıxışının açılışı olmuşdur. 2016-cı il aprel ayının 19-da isə Bakı Metropoliteninin perspektiv inkişaf planının birinci prioritet istiqamətinə daxil olan Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları sərnişinlərin istifadəsinə verilmiş və bununla da metropoliten xətlərinin uzunluğu 36,6 kilometrə, xətlərinin sayı 3-ə, stansiyalarının sayı isə 25-ə çatmışdır. Dövlət Proqramına görə, 2030-cu ildə paytaxtımızın yeraltı yollarının ümumi uzunluğu 119,1 km, stansiyalarının sayı isə 76-ya çatacaq. Böyük inkişaf yolu keçən Bakı Metropoliteninin hazırda 25 stansiyası, 1 elektrik deposu və 36,6 kilometr uzunluğunda 3 xətti vardır.

***Məlum olduğu kimi, Bakı metrosunun inkişafı Azərbaycan Respublikası Prezidentinin 18 mart 2011-ci il tarixli "Bakı Metropoliteninin perspektiv inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı ilə təsdiq olunmuş "Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi"nə və "Bakı Metropoliteninin 2011-2015-ci illərdə inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üçün Tədbirlər planı"na uyğun olaraq müəyyən edilib. Bu perspektiv inkişaf planı metropoliten üçün tarixi bir sənəddir. Paytaxt sakinləri, eləcə də oxucularımız inkişaf planı ilə yaxından tanış olsalar bu onların mənzil seçmələrində böyük rol oynayar. Yəni insanlar bir neçə ildən sonra öz rahatlıqlarını indidən təmin etmiş olarlar. Nəzərə alsaq ki, şəhərimiz günü-gündən böyüyür, əhalisi artır. Hökumətimiz də bu amili nəzərə alaraq şəhərin ətraf hissəsinin də bu nəqliyyat növü ilə təmin etməkdə olduqca maraqlıdır. Bakı Metropoliteninin bu barədə məlumatında qeyd edilir ki, Perspektiv plana əsasən, ümumi uzunluğu 28,5 km olacaq mövcud Qırmızı xətt*** Badamdar qəsəbəsindən başlayaraq Zığ qəsəbəsinədək uzanacaq. Cəmi 19 stansiyadan ibarət olacaq xəttin 13 stansiyası və 1 elektrik deposu istismardadır. Layihədə "İçərişəhər" stansiyasından sonra 4, "Həzi Aslanov" stansiyasından sonra 2 stansiyanın inşası nəzərdə tutulub. ***Ümumi uzunluğu 41,8 km olacaq Yaşıl xətt*** Xətai, Nəsimi, Yasamal, Binəqədi, Nəriman Nərimanov, Nizami, Sabunçu və Suraxanı rayonlarını əhatə edəcək. Perspektiv inkişaf planına uyğun olaraq, gələcəkdə bu xətt üzrə Bakı metrosunda ilk dəfə qatarların dairəvi hərəkəti təşkil olunacaq. 23 stansiyası olacaq bu xəttin 10 stansiyası istismardadır. Xəttin bir elektrik deposu hazırda inşa olunur, daha biri isə layihələndirmə mərhələsindədir. Perspektiv inkişaf planına uyğun olaraq, "28 May" stansiyasının layihəsi dəqiqləşdirərək yenidən qurulmasının başa çatdırılması ilə mövcud Qırmızı və Yaşıl xətlərdə qatarların sərbəst hərəkətinin təşkili nəzərdə tutulub. ***Uzunluğu 18,5 km olacaq yeni Bənövşəyi xətt*** Xocəsən qəsəbəsindən başlayaraq Qaraçuxur qəsəbəsinədək uzanacaq. Metropoliten perspektiv inkişaf planının birinci prioritet istiqamətinə daxil olan Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları 2016-cı il aprel ayının 19-da sərnişinlərin istifadəsinə verilib. Perspektiv inkişaf planına uyğun olaraq bu xətt üzrə 6-sı keçid olmaqla, 10 yeni stansiya inşa olunmalıdır. Hazırda Xocəsən qəsəbəsində Bənövşəyi xəttin deposunun tikintisi davam edir. ***Uzunluğu 16,3 km olacaq Mavi xətt*** Yeni Yasamal yaşayış sahəsindən başlayaraq Sabunçu rayonunun Bakıxanov qəsəbəsinə qədər uzanacaq. Xətt üzrə 7-si keçid olmaqla, 11 stansiya və 1 elektrik deposu tikiləcək. ***Uzunluğu 14,7 km olacaq Sarı xətt*** Binəqədi rayonundan başlayaraq Səbail rayonunun Bayıl qəsəbəsinədək uzanan xətt olacaq. Bu xətdə 5-i keçid olmaqla, 11 stansiya və 1 elektrik deposu inşa olunacaq. Hazırda tikinti işləri Yaşıl xəttin "Həzi Aslanov-2", Bənövşəyi xəttin "B-3", "B-4" stansiyalarında, "Dərnəgül" və "Xocəsən" depolarındadır. Perspektiv inkişaf planına uyğun olaraq yeni xətlərin tunel, stansiya və depolarının inşası ilə yanaşı, mövcud stansiyaların mərhələlərlə yenidən qurulması və müasir avadanlıqlarla təchiz olunması, dərin özüllü birçıxışlı stansiyaların ikinci çıxışlarının tikintisi nəzərdə tutulub. "Bakı Metropoliteninin 2011-2015-ci illərdə inkişafına dair Dövlət Proqramına əsasən dərin özüllü stansiyalarında ikinci giriş-çıxışların inşası da nəzərdə tutulan işlər sırasındadır. 2009-cu il dekabrın 30-da "28 May", 2015-ci il dekabrın 28-də "Elmlər Akademiyası"nın ikinci giriş-çıxışları istismara verilib. Həmin proqrama uyğun olaraq, 2008-ci il dekabrın 29-da "İçərişəhər", 2011-ci il dekabrın 30-da "Koroğlu", 2015-ci il mayın 5-də "28 May" stansiyaları əsaslı təmir olunaraq, yeni görkəmi ilə sərnişinlərin istifadəsinə verilib. ***"Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi"nə əsasən gələcəkdə metropolitenin ümumi şəbəkəsi 3 mövcud (Yaşıl, Qırmızı və Bənövşəyi) və 2 əlavə yeni xət (Mavi və Sarı) olmaqla, 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 km metro xəttindən ibarət olacaq. Bu illər ərzində 51 yeni stansiyanın inşa edilməsi və 84,3 km metro xəttinin çəkilməsi nəzərdə tutulub.***

Bu gün Bakı şəhər əhalisinin həyatında mühüm rol oynayan metro tikintisinin bütün sahələrində işlədiyim 35 illik təcrübəmə əsaslanaraq deyə bilərəm ki, metro tikintisi ilə bağlı bütün layihələr uğurla gerçəkləşəcək, paytaxtımızın sakinlərinə və qonaqlarına ən yüksək standartlar səviyyəsində xidmət göstəriləcəkdir. 50 illik yubiley münasibətilə bütün metropoliten işçilərini təbrik edir, işlərində yeni-yeni uğurlar arzulayıram.

**Qasım ABDULLAYEV,**
**"Şöhrət" ordenli,**
**respublikanın əməkdar mühəndisi,**
**texnika elmləri doktoru.**